# İqtisadiyyat

UOT 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.255

## BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTİNİN DÜNYA ÖLKƏLƏRİNİN İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

**ÜMMUHƏBİBƏ QƏLƏNDƏROVA**
*Bakı Dövlət Universiteti*
*Dünya iqtisadiyyatı kafedrasının dosenti,*
*iqtisad üzrə fəlsəfə doktoru*
*E-mail: Hebibe.qelenderova@gmail.com*

### Giriş

Dünyada artan qarşılıqlı asılılıqların çoxalması, beynəlxalq təşkilatların fəaliyyətinin dünya ölkələrinin iqtisadi inkişafına təsirini daha da aktual etmişdir. Dünyada gedən qloballaşma prosesinin təsiri dövlətlərarası problemlərin yaranmasına səbəb olmuşdur. Zəruri tələbatların artması, yeni mexanizmlərin yaranması ilə bərabər, beynəlxalq iqtisadi əlaqələri gücləndirməklə, dünyada iqtisadi sahədə struktur islahatlarının aparılmasını vacib etmişdir. Bunu nəticəsində, müasir iqtisadi problemlər, ölkələrin qlobal iqtisadiyata inteqrasiyasını artırmışdır. Ölkələr arası inteqrasiya əsas vasitə olmaqla, dövlətin transformasiyasını və konstruksiyalarını bazar iqtisadiyyatında hüquqlarının qorunmasını tələb edən forma kimi meydana çıxmışdır.

Məhz bu zaman, beynəlxalq maliyyə təşkilatları qlobal iqtisadi münasibətlərin ən mühüm həlqələrindən biri hesab olunmaqla xüsusi əhəmiyyət daşımışdır. Beynəlxalq maliyyə təşkilatları gələcək inkişafın meyarı kimi, dünya ölkələrinin vacib ehtiyac resurslarının ödənilməsinə xidmət edir [1].

Dünya ölkələrində maksimum inkişafı təmin etməklə, səmərəli əlaqələrin qurulması, ölkələr arası, sosial-iqtisadi inkişafda hərtərəfli qarşılıqlı əlaqənin qurulmasında birincilik qazanmışdır. Beynəlxalq maliyyə təşkilatlarının işinin təhlili və üstünlükləri onu göstəriri ki, iqtisadi münasibətlərdə çatışmazlıqların nəzərə alınması, gələcək əməkdaşlıq üçün əsas prinsiplərin formalaşması və yeni metodların yaranmasına səbəb olur. Bu sahəyə yenidən baxılması, iqtisadi əlaqələrin balanslaşdırılmaqla, qiymətləndirilməsinə sistemli yanaşmanı əsaslandıran, yeni iqtisadi əməkdaşlıq strategiyasının işlənib hazırlanmasının əsasının qoyulmasını tələb edir.

Dünya iqtisadiyyatında hökumətlərarası maliyyə axınlarının tənzimlənməsi, ölkənin valyuta və kredit təşkilatlarının strukturlarının sisteminin yeni tələblər əsasında qurulmasın tələb edir. Bu, xüsusən də dünya iqtisadiyyatında beynəlxalq iqtisadi əlaqələrin yeni səviyyədə inkişafına təkan verməklə, ayrı-ayrı ölkələrin iqtisadi potensialının dövrün tələbləri baxımından yüksəldilməsinə səbəb olar.

Dövlətlərarası iqtisadi əməkdaşlığın yüksək səviyyədə təmin edilməsində, güclü mexanizmlərin olması lazımdır. Eyni zamanda, bu mexanizmlərdən səmərəli istifadə olunması sistemi yaradılmalıdır. Bu zaman, maliyyə axını sferasının fasiləsiz fəaliyyətini təmin edən, dövlətlərarası iqtisadi əməkdaşlığın yaradılması lazımdır.

Dövlətin iqtisadi inkişafında beynəlxalq iqtisadi təşkilatların tutduğu mövqeyin əhəmiyyəlilik dərəcəsinə bu müstəvidən baxılmalıdır. Bu zaman, üzv dövlətləri arasında yaranan iqtisadi əməkdaşlığın mövcud və gələcək tendensiyalarının da təhlil olunması lazımdır.

Bu sahədə aparılan tədqiqatların çox olmasına baxmayaraq, mövzunun aktuallığı öz təsirini itirmir. Dövlətin gələcək siyasi – iqtisadi sabitliyini və təhlükəsizliyi təmin edən, əsas amillərin qorunub saxlanması lazımdır.

Beynəlxalq İqtisadi Təşkilatın fəaliyyətinin öyrənilməsinin əsas əhəmiyyəti, ölkələr arasındakı mövcud iqtisadi münasibətlərin inkişaf meyillərinin aydınlaşdırılması ilə birlikdə aşağıdakı əsas amillərin meydana çıxması öz əksini tapır:

- beynəlxalq iqtisadi təşkilatların müasir tələblərinin meydana çıxması;
- dünya ölkələrinin ehtiyac meyarlarının müəyyən edilməsi;
- qlobal iqtisadiyyatın davamlı inkişafında beynəlxalq iqtisadi təşkilatların rolunun müəyyən edilməsi;
- davamlı və uzunmüddətli iqtisadi inkişafın təmin edilməsində beynəlxalq iqtisadi təşkilatların təsirinin öyrənilməsi;
- Dövlətlərarası iqtisadi əməkdaşlığın müəyyən edən ümumi qanunauyğunluğun işlənib hazırlanması;

- ölkələrin iqtisadi inkişaf dinamikasında beynəlxalq maliyyə təşkilatlarının əhəmiyyətinin müəyyən edilməsi;
- beynəlxalq maliyyə təşkilatlarının müasir inkişaf problemlərinini müəyyən etmək;
- Azərbaycan Respublikasında Beynəlxalq İqtisadi Münasibətlərinin yaranması mexanizmasının əhəmiyyətinin göstərilməsi qeyd edilməlidir.

Bütün bunlar dünya iqtisadiyyatında beynəlxalq təşkilatların rolunu artırmaqla, yeni iqtisadi inkişafa təkan verirdi. Dünya ölkələri arasında siyasi-iqtisadi münasibətlərin yaranması başladı.

## Qloballaşma prosesinin beynəlxalq təşkilatların fəaliyyətinə təsiri və dünya ölkələri arasında siyasi-iqtisadi məqsədlərin inkişafı

Beynəlxalq əlaqələrin qurulması, dövlətlər arasındakı əlaqənin ictimai formalarında xarakterik bir hadisədir. İqtisadi sistemlərin əsas siyasi maraqlarının müəyyən edilməsi, idarəetmə formalarına təsir etməklə, mövcud rejimin, inkişaf səviyyəsinə uyğun, hakimiyyətin xüsusiyyətlərində və liderin şəxsiyyətində görsənməkdədir. Belə ki, dövlətin istənilən siyasi proqramında, iqtisadi maraqlar birinci yerdə dayanır.

Bu proses dünya iqtisadiyyatında baş verən proseslərə təsir edərək, qərarların verilməsində aktual olur. Bu da öz növbəsində, beynəlxalq iqtisadi təşkilatlarda siyasi nəticələrə yer verir. Ölkə siyasətlərinin iqtisadi problemlərinin və maraqlarının əsaslandırılması vacib amillərdən hesab olunur. Bu kimi, iqtisadi maraqlar, iqtisadi sistemin əsas məqsəd və vəzifələr toplusunda, həlledici vasitəsidir.

İqtisadi - siyasətdən əsas məqsədlərində beynəlxalq iqtisadi münasibətlərdən istifadə etməklə, dövlətin sabitliyinin qoruması və bazar iqtisadiyyatında yerinin tutulması həyata keçirilir.

Dünyada aparılan sabit siyasi-iqtisadi siyasət, ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. Bu da, ölkənin xarici maliyyə cəlbediciliyini artırır. Ölkəyə birbaşa investisiya axının təmin edilməsi səlahiyyətlərini yerinə yetirə bilən beynəlxalq təşkilatlara ehdiyac vardır. Bu kimi maliyyə bölüşdürülməsi, ölkədə kapitalın xaricə axmasına səbəb olur. Məhz bu baxımdan siyasətin iqtisadiyyata təsir mexanizminin daha dəqiq ölçülməsi də vacib hesab olunmaqdadır.

**Şəkil 1**
**Siyasətin iqtisadiyyata təsir mexanizmi**




***Mənbə:*** *Şəkil 1. Müəllif tərəfindən tərtib olunmuşdur.*

Ölkənin iqtisadi inkişafında sahibkarlığın inkişafı ilə birlikdə əhalinin işgüzar fəallığına şəraitin yaradılması, ölkədə işsizlik probleminin aradan qaldırılmasına səbəb olur. Beynəlxalq səviyyədə, dövlətin beynəlxalq iqtisadi münasibətlərinin formalaşması müsbət hal kimi qeyd edilməkdədir. Hazırda ölkənin yüksək elmi-texniki siyasətində və əmək məhsuldarlığının artmasında fəal olan sahələrin inkişafı aktual məsələlərdən hesab olumaqdadır. Bu da ona gətirib çıxarır ki, istehsal mühitinə müsbət təsir göstərən sahələrin inkişafı kompleks həll edilməlidir.

Dövlət iqtisadiyyatının sosial əhəmiyyətli sahələrinin inkişafında, beynəlxalq iqtisadi təşkilatların rolu günü – gündən artmaqdadır. Ölkə ərazisində həm kiçik və orta biznesin, həm də xarici müəssisələri dəstəkləyən iqtisadiyyatın sabitləşməsi vacib hesab olunmaqdadır. Bu kimi iqtisadi inkişafa yönəlmiş tədbirlərin həyata keçirilməsi, dövlət iqtisadi strukturunun daha çox inkişaf etməsinə zəmin yaradır.

**Şəkil 2.**
**Beynəlxalq iqtisadi təşkilatların əsas funksiyaları**




***Mənbə:*** *Şəkil 2. Müəllif tərəfindən tərtib olunmuşdur.*

Siyasi-iqtisadi mühitin sabitləşməsi qlobal münaqişənin bariz nümunəsi olmaqla, xarici ticarətin inkişafına, bu sahədə ölkələr arasında yaranan ziddiyyətlərin aradan qalxmasına səbəb olmaqla, beynəlxalq ticarət müharibələrinin formalaşmasına səbəb olmuşdur.

Dünya miqyasında, ticarət müharibəsinin əsas məqsədi, hər bir ölkənin iqtisadi mövqeyini ya yaxşılaşdırmaq və ya saxlamaqdır. Bu dünyada gedən rəqabətin nəticəsini azaltmır. Əksinə, iqtisadi vəziyyətin itirilməsinin qarşısını ala bilər. Ölkələr arası iqtisadi münasibətlərin qurulması, tərəflər arası rəqabətlə bərabər, inkişafa da təsir edir. Dünyada bu vəziyyət əks gedərsə, təhlükəli münaqişənin uzanmasına səbəb olar. Bu baxımdan, beynəlxalq iqtisadi təşkilatların mövqeyi barışdırıcı xarakter alır. Bu siyasi məqsədlərlə bərabər, iqtisadi təzyiq rıçaqlarından istifadənin olmasını da tələb edir. Bunun başqa bir forması verilən sanksiyalardır.

Bu sanksiyalar siyasəti arzuolunmaz fəaliyyətləri məhdudlaşdırmaqla tətbiq edilir. Məsələn, Qərb dövlətlərinin İrana qoyduqları sankiyalar kimi. Bu sanksiyaların rəsmi səbəblərinin qeyd edilməsi ilə, İranda nüvə proqramının inkişafının dayanmasına, insan haqlarının pozulmasının qarşısının alınmasına, Yaxın Şərqdə olan terror təşkilatlarından qorunması üçün verilmişdir.

Qlobal iqtisadiyyata təsir göstərməklə, ticarət əlaqələrinin pozulmasının və resurslarının yenidən bölüşdürülməsinin həyata keçrilməsi baş verir. Bütün bunlar dünyada iqtisadi problemlərin aradan qaldırılmasına, milli iqtisadiyyatın inkişafına səbəb olan faktorların yaranmasını vacib edir.

Dünya iqtisadiyyatında siyasi-iqtisadi məsələlərin həll edilməsi ən mühüm sosial siyasət kimi dövlət proqramına daxil edilir. Ölkənin siyasi sistemində, iqtisadi sistemin müstəqilliyinin artması, dövlətin əsas siyasi - iqtisadi qərarlarında yer tutmaqdadır. Bu, onu deməyə əsas verir ki, iqtisadi əsas olmadan heç bir iqtisadi münasibət həyata keçirilə bilməz.

## Azərbaycan Respublikasının iqtisadi inkişafında beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında, beynəlxalq iqtisadi təşkilatların rolu

Müstəqillik illərində, milli iqtisadiyyatın qurulması ilə, Azərbaycan Respublikasında beynəlxalq iqtisadi münasibətlərin formalaşması da həyata keçrilməyə başladı. Bu ölkədə verən dəyişikliklərin formalaşmasına, yeni müəssisələrin yaradılmasına və qeyri-rentabelli köhnə müəssisələrin ləğv edilməsinə səbəb olmaqla yanaşı, işsizlərin sayının azaldıması uğrunda atılan əsas qərarlar idi. Ölkədə bununla yanaşı, betnəlxalq iqtisadi münasibətlərin formalaşması da həyata keçməkdə idi. Bu sahədə problemlərin mövcud olması, həm daxili, həm də xarici bazarda iqtisadi tələbat mallarının çatışmazlığına gətirib çıxarda bilərdi. Bu prosesin qarşısının alınması üçün öncə kiçik biznes sahəsinin inkişafına təkan verildi. [3]

Nəzərə almaq lazımdır ki, ölkənin istehsalı bazarda çox az faizini təşkil edir ki, bu da kiçik biznes sahələrinin meydana gəlməsini zəruri edirdi. Azərbaycanda biznes sahələrinin maliyyə bazasının təşkili sadə və etibarlı olması baxımından, beynəlxalq investorların cəlbini də tələb edirdi. Bu baxımdan, yeni biznes sahələrini yaratmaqla və iqtisadi münasibətlərdən səmərəli istifadə etməklə biznesin digər tərkib hissələrinin yeni tələblər səviyyəsində qurulması tələbini qoydu.

Dünya səviyyəsində layiqli yerini tutmaq üçün Azərbaycan Respublikası beynəlxalq iqtisadi siyasətin uğurlu aparılmasına nail olmaqla, ölkədə, daxili iqtisadi faktorların güclənməsinə və dünya iqtisadiyyatında yüksək mövqeyinə nail olmuşdur. Bütün bunlar, Azərbaycan Respublikasının dünya iqtisadiyyatına təsirini dəstəkləməklə, siyasət-iqtisadi inkişaf qanunlarının formalaşmasına da səbəb olmuşdur [4].

**Cədvəl 1**

**Azərbaycan Respublikasının əməliyyat növləri üzrə idxal, (min ABŞ dolları) /2/**

| Əməliyyat növləri | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Cəmi, o cümlədən | 11465914,7 | 13667475,7 | 10732038,8 | 11703222,6 | 14539789,1 | 17285344,7 |
| Milli valyuta ilə hesablaşmalar | 622,1 | 6 949,0 | 25 529,9 | 55 810,9 | 36 847,0 | 3 348,2 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 8 996 863,5 | 9 832 011,1 | 9 111 364,1 | 9 818 293,0 | 12 562 320,8 | 14 107 327,7 |
| Klirinq üzrə hesablaşmalar | 20,3 | 120,9 | 468,6 | 115,9 | 110,4 | 560,6 |
| Qapalı valyuta üzrə hesablaşmalar | 616 469,4 | 786 615,7 | 741 087,7 | 862 413,5 | 1 318 485,8 | 1 623 577,8 |
| Digər kommersiya əməliyyatları üzrə malların keçirilməsi | 14,7 | - | 565,5 | - | 19,2 | - |
| Digər sövdələşmələr üzrə mal göndərilməsi | - | - | - | - | - | - |
| Müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi | 14,9 | 59,7 | 189,3 | 51,4 | 40,5 | 136,2 |
| Sövdələşmə xarakteri təyin olunmayıb | - | - | - | - | - | - |
| Digər əməliyyat növləri | 1 851 909,8 | 3 041 719,3 | 852 833,7 | 966 537,9 | 621 965,4 | 1 550 394,2 |

Cədvəldən göründüyü kimi, əməliyyat növləri üzrə, 2018-ci ildə 11465914,7 min ABŞ dolları olduğu halda, 2023-cü ildə 17285344,7 min ABŞ dolları olmuşdur. Azərbaycanda COVID-19 pandemiyasının təsirini nəzərə almasaq, bu göstərici müsbət hesab edilir.

Nəticədə ölkənin iqtisadi inkişafının yüksək olması, onun iqtisadi sahələrinin inkişafını göstərir. Bu baxımdan, beynəlxalq iqtisadi əlaqələrin inkişafı ölkə iqtisadiyyatında xüsusi rol oynamaqla yanaşı, regional və xarici iqtisadi münasibətlərin formalaşmasına səbəb olur [5].

Bütün bunlar ölkəmizin beynəlxalq arenada inkişafına təkan verən əsas elementlərdən biri olmaqla, beynəlxalq iqtisadi təşkilatlarda etibalı müttəfiq qazanmasına səbəb olur. İqtisadi inteqrasiya proseslərinə imkan verən bütün imkanlardan istifadə olunması aktual məsələlərdən hesab edilməlidir.

## İSTİNADLAR:


*1. https://ru.wikipedia.org/wiki/%D0%9C%D0%B5%D0%B6%D0%B4%D1%83%D0%BD%D0%B0%D1%80%D0%BE%D0%B4%D0%BD%D0%B0%D1%8F_%D0%BE%D1%80%D0%B3%D0%B0%D0%BD%D0%B8%D0%B7%D0%B0%D1%86%D0%B8%D1%8F*

*2. https://www.stat.gov.az/source/trade/*

*3. https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/iqtisadi-teskilatlarla-emekdasliq*

*4. https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/iqtisadi-teskilatlarla-emekdasliq/regional-teskilatlar*

*5. https://www.mfa.gov.az/az/category/beynel xalq-teskilatlar*


## XÜLASƏ


Məqalədə, beynəlxalq təşkilatların fəaliyyətinin dünya ölkələrinin iqtisadi inkişafına təsirinin əhəmiyyəti və bu sahənin mövcud problemləri tədqiq olunmuşdur. Beynəlxalq təşkilatların fəaliyyətinin inkişafının əhəmiyyətinin qiymətləndirilməsi ilə bərabər, dünya ölkələrinin inkişafında tutduğu mövqeyi göstərilmişdir. Sosial-iqtisadi inkişafın əhəmiyyətini nəzərə alaraq, ölkədə əhalinin məşğulluq səviyyəsinin mövcud problemləri qeyd olunaraq, eyni zamanda məqalədə, dünya iqtisadiyyatına təsir edən sahələrin kompleks araşdırılması aparılmışdır.

Müəllif, beynəlxalq təşkilatların fəaliyyətinin əhəmiyyətini göstərməklə, dünyanın ayrı-ayrı ölkələrinin iqtisadiyyatına təsirinin dərəcəsi, statistik məlumatlarında istifadə edilməklə qiymətləndirilmişdir. Son illərin statistik məlumatları əsasında, Azərbaycan Respublikasının və digər ölkələrin iqtisadi göstəriciləri təhlil edilmişdir, statistik məlumatlarından istifadə olunmuşdu. Məqalənin sonunda, beynəlxalq təşkilatların fəaliyyətinin dünya ölkələrinin iqtisadi inkişafına təsiri əsaslandırılmış, ölkənin maddi istehsal sahələrində qiymətləndirilməsi göstərilmiş, nəticə və təkliflərlə birlikdə, istinad olunmuş ədəbiyyat siyahısı verilmişdi.



**Açar sözlər:** *beynəlxalq təşkilatlar, beynəlxalq siyasət, iqtisadi inkişaf, dünya iqtisadiyyatı, qloballaşma, davamlı inkişaf*


## Влияние деятельности международных организаций на экономическое развитие стран мира

## РЕЗЮМЕ


В статье рассматривается значение влияния деятельности международных организаций на экономическое развитие стран мира и современные проблемы в этой сфере. Наряду с оценкой значимости развития деятельности международных организаций, показано их место в развитии стран мира. Учитывая важность социально-экономического развития, отмечены текущие проблемы уровня занятости населения в стране, и в то же время в статье проведено комплексное исследование сфер, которые влияют на мировую экономику.

Автор, показывая значимость деятельности международных организаций, оценил степень их влияния на экономику отдельных стран мира с использованием статистических данных. На основе статистических данных последних лет были проанализированы экономические показатели Азербайджанской Республики и других стран, использованы статистические данные. В конце статьи обосновано влияние деятельности международных организаций на экономическое развитие стран мира, дана оценка отраслей материального производства страны, приведен список цитируемой литературы, сделаны выводы и предложения.



**Ключевые слова:** *международные организации, международная политика, экономическое развитие, мировая экономика, глобализация, устойчивое развитие.*